Scientific News of Azerbaijan State Academy of Physical Education and Sport
Sport Science Journal
vol. 4, № 1, 2022, pp. 123-129.

# 1996-2020-Cİ İLLƏRDƏ AZƏRBAYCAN BOKSÇULARININ OLİMPİYA OYUNLARINDA OLAN ÇIXIŞLARIN TƏHLİLİ

**V.M. Vəliyev, B.R. Rzayev, R.K. Yaqnəliyev, B.R. Səlimzadə**

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
vahid.valiyev@sport.edu.az, balarza.rzayev@sport.edu.az, ramiz.yagnaliyev@sport.edu.az, baba-ali.salimzada2021@sport.edu.az

**Nəşr tarixi**
Qəbul edilib: 12 yanvar 2022
Dərc olunub: 9 mart 2022
© 2022 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** Azərbaycan boksçuları 1996-cı ildən olimpiya oyunlarında iştirak hüququnu qazanmışlar.Həmin ildə yalnız 2 boksçumuz mübarizə aparsa da hakim ədalətsizliyi səbəbində boksçularımız heç biri medal qazana bilməmişlər. 2004-cü il Afina Olimpiya oyunları Azərbaycan boksçularının pik həddi kimi də vurğulamaq olar.Tam heyətinin Azərbaycanlı olması komandanın üstün tərəflərindən qeyd edilə bilər. Son illər legioner boksçuların komandaya cəlb edilməsi və nəticələrinin tədricən enməsi probleminin araşdırılma zəruriyyəti vardı.

**Açar sözlər:** *Boks, olimpiya oyunlarında, Atlanta Olimpiya oyunları, Sidney Olimpiya oyunları, Afina Olimpiya oyunları, Pekin olimpiya oyunları, London olimpiya oyunları, Rio olimpiya oyunları, Tokio olimpiya oyunları, çəki dərəcələri, mükafatçıların statistikası, Azərbaycan boksçuları.*

İlk dəfə Olimpiya oyunlarında boksçularımız 1996-cı ildə çıxış ediblər. + 91 kq çəkidə Ədalət Məmmədov 81 kq çəkidə İlham Kərimov. Bu çıxışlar uğursuz olub. Ədalət Məmmədov 5ci yerə çıxıb

Olimpiya oyunlarında boksçularımızın ilk uğuru 2000-ci ildə keçirilmiş Sidney Olimpiadasına təsadüf edir. Planetin ən böyük yarışında 75kq çəki dərəcəsində mübarizə aparmış Vüqar Ələkbərov bürünc medala layiq görüldü.

2004 Afina XXVIII Yay Olimpiya Oyunlarında mübarizə aparan daha iki boksçu, Cavid Tağıyev və Əli İsmayılov da uğursuz çıxışı ilə yadda qaldı. Tağıyev Yunanıstan boksçusu üzərində qələbə qazansada, gərgin görüşün yekununda Tailand boksçusuna məğlub olaraq mübarizəni erkən dayandırdı. İsmayılov isə Yunanıstan nümayənədsi Elias Pavlidisə uduzaraq mübarizəni dayandırdı.

2008 Pekin XXIX Yay Olimpiya Oyunlarında boks idman növü üzrə yarışlar, 9-24 avqust tarixləri arasında Pekin Proletari idman Sarayında baş tutdu Azərbaycanı, bu idman növü üzrə 2 boksçu, 2007-ci il Dünya Çempionatının bürünc medalçısı Samir Məmmədov və 2002, 2006-cı illərin Avropa Çempionatının finalçısı Şahin İmranov təmsil etdi.

2004 - Afina XXVIII Yay Olimpiya Oyunlarında boks idman növü üzrə yarışlar 14-29 avqust tarixləri arasında "Peristeri" Olimpiya boks Zalında keçirildi. Azərbaycanı bu idman növündə doqquz boksçu təmsil etdi. Onlar sırasında ən titulu idmançılar Dünya çempionu Ağası Məmmədov, Avropa çempionu Rövşən Hüseynov, Sidney Olimpiadasının bürünc medalçısı Vüqar Ələkbərov, Dünya Çempionatının medalçıları Şahin İmranov, Ruslan Xayırov, Cavid Tağıyev və Əli İsmayılov var idi.

48 kiloqram çəki dərəcəsində yarışan Ceyhun Abiyev birinci görüşdə Macarıstanlı Pal Bedak ilə qarşılaşdı, Həmin görüşdə rəqibində tam üstün olan Ceyhun Abiyev 23:8 hesabı ilə qələbə qazandı. Növbəti görüşdə o, Türkiyə boksçusu Atagün Yalçınkaya ilə üz-üzə gəldi. Gərgin keçən görüşün yekununda Ceyhun Əbiyev rəqibinə 20:23 hesabı ilə uduzdu və mübarizəni dayandırdı.

51 kiloqram çəki dərəcəsində mübarizə aparan Fuad Aslanova isə medal qazanmaq qismət oldu. O, Madaqaskar Corc Rakotoarimbelo, Gürcüstanlı Nikoloz İzoriya və Polşalı Andrey Rzani üzərində qələbə qazanaraq yarım-finala adladı və ən azı bürünc medalı təmin etdi. Bu mərhələdə Fransa boksçusu Jerome Tomasa 18:23 hesabı ilə uduzan Fuad

Aslanov, Afina Olimpiadasını bürünc medalla başa vurdu.

54 kiloqram çəki dərəcəsində yarışan Ağası Məmmədov da eyni ilə Fuad Aslanov kimi bürünc medal qazandı. Boks üzrə Azərbaycanın birinci Dünya çempionu 24 yaşlı boksçu Avstraliyalı Joel Brunker, Bolqarıstanlı Detelin Dalakliyev və Ukraynalı Maksim Tretyak üzərində qələbə qazanaraq yarım-finala adladı. Finala gedən yolda Tailand nümayəndəsi Vorapoj Petçkom ilə qarşılaşan Ağası Məmmədov rinqi 19:27 hesabı ilə məğlub tərk etdi və XXVIII Yay Olimpiya Oyunlarının bürünc medalına layiq görüldü.

57 kiloqram çəki dərəcəsində mübarizə aparan Şahin İmranov birinci görüşdə Cənubi Afrika Respublikasının boksçusu Ludumo Qalada üzərində qələbə qazansa da, növbəti görüşdə Dünya və Avropa çempionu, Rusiyalı Aleksey Tişçenkoya uduzdu və mübarizə dayandırdı.

Rövşən Hüseynov (60 kiloqramda) və Ruslan Xairov (69 kiloqramda) isə Afina Olimpiadasında medalın bir addımlığında uduzdu. Avropa çempionu Rövşən Hüseynov Cənubi Afrika Respublikasının nümayəndəsi Bonqani Malanqu və Amerika Birləşmiş Ştatlarının boksçusu Visente Eskobedo üzərində inamlı qələbə qazanıb 1/4 final mərhələsinə adladı. Bu mərhələdə üç qat Dünya çempionu kubalı Mario Kindelana 11:23 hesabı ilə məğlub olan Hüseynov yarışları 5-ci yerdə başa vurdu. Hüseynovdan fərqli olaraq Ruslan Xairovun medal qazanmaq şansı daha çox idi. 1/4 final mərhələsinə gədər Kanadalı Adam Trupişi və Çinli Hanati Silamunu məğlub edən Xairov medal uğrunda görüşdə iki qat Dünya çempionu, Kubalı Lorenso Araqon ilə qarşılaşdı. Gərgin keçən görüşün yekununda Ruslan Xairov iki xal fərqlə rəqibinə məğlub oldu, 14:16.

2012-London Azərbaycan – Böyük Britaniyanın paytaxtı London şəhərində baş tutan XXX Yay Olimpiya Oyunlarında. 27 iyul-12 avqust tarixləri arasında keçirilən 2012 Yay Olimpiya Oyunlarında Azərbaycan 53 idmançı ilə 15 idman növündə təmsil olundu.

Azərbaycan XXX Yay Olimpiya Oyunlarında 10 medal qazanıldı, boksçulardan isə Teymur Məmmədov (bürünc) və Məhəmmədrəsul Məcidov (bürünc) əldə etdi. Teymur Məmmədov 91 kq 1/8 final mərhələsində Jai Opetaia 12–11 qalib gəldi. 1/4 final mərhələsində Sergey Karneyeu qalib gələrək yarım finala yüksəldi.Yarım finalda İtaliya temsilçisi Klemente Russo ilə qarşılaşdı döyüş Klementenın qələbəsi ilə başa çatdı. Məhəmmədrəsul Məcidov +91 kq 1/8 final mərhələsində Meji Mvamba tam üstünlüklə qələbə qazandı. 1/4 final mərhələsində Məhəmməd Ömərov 17–14 xalla qələbə qazanaraq yarım finala yüksəldi. Roberto Kammarelle ilə yarım finalda döyüşərək məğlub oldu. Elvin Məmişzadə 52 kqda ilk döyüşündə Nyambayaryn Tögstsogt məğlub olaraq mübarizəni dayandırmışdır. Məhəmməd Abdulhəmidov 56 kq Heybətulla Hacıəliyev 64 kq Soltan Migitinov 75 kq Vətən Hüseynli 81 kq mübarizəni medalsiz başa vurdular.

5–21 avqust tarixləri arasında Braziliyada baş tutan XXXI Yay Olimpiya Oyunlarında Azərbaycan 56 idmançı ilə 17 idman növündə təmsil olundu.

Azərbaycan XXXI Yay Olimpiya Oyunlarında 18 medal (1 qızıl, 7 gümüş və 10 bürünc) qazandı. Boksçular Kamran Şahsuvarlı (bürünc) ilə Lorenso Sotomayor (gümüş) qazandırdı.

Rio-de-Janeyro Olimpiadasında boks idman növü üzrə yarışlar 6-21 avqust tarixləri arasında Rio Sərgi Mərkəzində baş tutdu. Azərbaycan bu idman növündə kişilərin yarışında tam heyətlə (10 boksçu), qadınların yarışında isə bir boksçu ilə təmsil olundu. Azərbaycan birinci lisenziyanı 2015-ci ilin aprel ayında qazandı. Albert Səlimov Ümumdünya Boks Seriyasında ilk üç boksçu sırasında yer aldı və XXXI Yay Olimpiya Oyunlarına lisenziya qazandı.

Azərbaycan növbəti lisenziyaları həmin ilin oktyabr ayında Qətərin paytaxtı Doha şəhərində qazandı. Elvin Məmişzadə və Pərviz Bağırov müvafiq olaraq Dünya Çempionatında qızıl və bürünc medal qazanaraq 2016 Rio-de-Janeyro Olimpiadasına vəsiqə qazandı.

Azərbaycan daha beş lisenziyanı 2016-cı ilin aprel ayında Türkiyənin Samsun şəhərində qazandı. Cavid Çələbiyev, Lorenso Sotomayor, Abdulqədir Abdullayev, Məhəmmədrəsul Məcidov və Yana Alekseyeva Avropa

Olimpiya Təsnifat turnirində uğurla çıxış etdi və XXXI Yay Olimpiya Oyunlarına lisenziya qazandı.

Azərbaycan son üç lisenziyanı isə həmin ilin iyun ayında Bakı şəhərində qazandı. Rüfət Hüseynov, Kamran Şahsuvarlı və Teymur Məmmədov Dünya Olimpiya Təsnifat turnirində uğurla çıxış etdi və 2016 Rio-de-Janeyro Olimpiadasına lisenziya qazandı. Bununla da Azərbaycan 4 ölkə (Böyük Briyaniya, Özbəkistan, Kuba, Qazaxıstan) ilə birgə XXXI Yay Olimpiya Oyunlarında kişilərin yarışında tam heyətlə təmsil olunan ölkələrdən biri oldu.

Abdulqədir Abdullayev və Fransa boksçusu Paul Omba-Biongolo XXXI Yay Olimpiya Oyunlarında Rüfət Hüseynov 6 avqust tarixində mübarizəyə qoşuldu. O, 1/16 final mərhələsində Namibiya boksçusu Matias Hamunyela ilə üz-üzə gəldi. Qarşılaşmanın birinci hissəsində Rüfət Hüseynov qalib gəlsədə, görüşün növbəti raundlarında rəqibindən tam üstün olan Namibiya boksçusu qələbə qazandı. 19 yaşlı gənc boksçu Rüfət Hüseynov isə rinqi məğlub tərk edərək mübarizəni erkən dayandırdı.

"Rio-2016" Olimpiadasının ikinci günündə, 7 avqust tarixində rinqə Teymur Məmmədov çıxdı. Onun rəqibi Ukrayna boksçusu Denis Solonenko idi. Görüşün birinci və ikinci hissəsində rəqibindən açıq-aşkar üstün olan Teymur Məmmədov rinqi, 3:0 hesablı qələbə ilə tərk etdi və növbəti mərhələyə vəsiqə qazandı

Rio-de-Janeyro Olimpiadasının üçüncü günündə, 8 avqust tarixində Azərbaycanın daha bir boksçusu rinqə çıxdı, Abdulqədir Abdullayev. Onun rəqibi 20 yaşlı Fransa boksçusu Paul Omba-Biongolo oldu. Həmin görüşdə rəqibindən birbaş üstün olan, Abdulqədir Abdullayev birinci və ikinci hissədə qələbə qazandı. Sonuncu, üçüncü raunda isə Abdulqədir Abdullayev rəqibini texniki nokauta salaraq qələbə qazandı və növbəti, 1/4 final mərhələsinə adladı.

"Rio - 2016" Olimpiadasının dördüncü günündə rinqə Azərbaycanın daha üç boksçusu çıxdı. Birinci olaraq mübarizəyə Kamran Şahsuvarlı qoşuldu. O, 1/16 final mərhələsi çərçivəsində Çin Xalq Respublikasının nümayəndəsi Jao Minggang ilə üz-üzə gəldi. Görüş ərzində rəqibindən daha üstün olan Kamran Şahsuvarlı rinqi 3:0 hesablı qələbə ilə tərk etdi və növbəti, 1/8 final mərhələsinə adladı. Daha sonra rinqə Dünya və Avropa çempionu Albert Səlimov çıxdı. O, 1/8 final mərhələsində İrlandiya boksçusu David Joyce ilə üz-üzə gəldi. Hər üç raund ərzində rəqibinə sarsıdıcı zərbələr endirən Albert Səlimov gürüşdə qələbə qazandı və növbəti, 1/4 final mərhələsində Fransa boksçusu Sofiane Oumihanın rəqibi oldu. Sonda isə mübarizəyə iki qat Dünya çempionu Məhəmmədrəsul Məcidov qoşuldu.

Onun rəqibi Mərakeş boksçusu Məhəmməd Arjaoui oldu. Həmin görüşdə Məhəmmədrəsul Məcidov asan qələbə qazandı və növbəti mərhələyə adladı.

XXXI Yay Olimpiya Oyunlarında, 10 avqust tarixində Abdulqədir Abdullayev özünün ikinci döyüşü üçün rinqə çıxdı. O, yarımfinal mərhələsində Özbəkistan boksçusu Ruslan Tulaqanovla qarşıldı. Görüşün birinci hissəsində rəqibi üzərində üstün olan Abdulqədir Abdullayev qələbə qazandı. Daha sonrakı iki hissədə isə Özbəkistan boksçusu Ruslan Tulaqanov cüzi fərqlə üstün oldu və qələbə qazandı. Abdulqədir Abdullayev isə medalın bir addımlığında mübarizəni dayandırdı.

"Rio-2016" Olimpiadasının altıncı günündə rinqə Azərbaycanın daha dörd boksçusu çıxdı. Rinqə birinci olaraq Cavid Çələbiyev çıxdı. Onun 1/16 final mərhələsində rəqibi Qazaxıstan boksçusu, 2013-cü ilin Dünya Çempionatının bürünc medalçısı Kayrat Yerəliyev oldu. Görüşün birinci hissəsində Cavid Çələbiyev üstün olsada, sonrakı iki hissədə Qazaxıstan boksçusu üstün oldu və qələbə qazandı. 2013-cü ilin Dünya çempionu Cavid Çələbiyev isə "Rio-2016" Olimpiadasında mübarizəni erkən başa vurdu. Cavid Çələbiyevdən dərhal sonra rinqə Lorenso Sotomayor çıxdı. O, ilkin mərhələdə Ukrayna boksçusu Vladimir Matveyçuk ilə qarşılaşdı. Təcrübəsiz rəqibi ilə görüşdə açıq-aşkar üstün olan Lorenso Sotomayor rinqi qalib tərk etdi və növbəti mərhələyə vəsiqə qazandı. Daha sonra rinqə Pərviz Bağırov çıxdı. O, 1/8 final mərhələsində Fransa boksçusu Süleyman Diok Sissoko ilə qarşılaşdı. Görüş ərzində Pərviz Bağırovun daha üstün olmasına baxmayaraq, hakimlər qələbəni Süleyman Diok Sissokouya verdi

və Pərviz Bağırov isə XXXI Yay Olimpiya Oyunlarında mübarizəni erkən dayandırdı. Sonda rinqə Teymur Məmmədov özünün ikinci qarşılaşmasını keçirmək üçün çıxdı. O, Niderland boksçusu Peter Müllenberg ilə üz-üzə gəldi. Güclü rəqibi ilə görüşdə Teymur Məmmədov daha üstün oldu və rinqi qələbə ilə tərk edərək, 1/4 final mərhələsinə adladı.

12 avqust tarixində Albert Səlimov ən azı bürünc medalı təmin etmək üçün, Fransa boksçusu Sofiane Oumiha ilə görüşə çıxdı. Daha əvvəl Fransa boksçusunu iki dəfə məğlub edən Albert Səlimov bu səfər özündən zəif və təcrübəsiz rəqibi lə bacarmadı. O, rəqibinə məğlub olaraq XXXI Yay Olimpiya Oyunlarında medalın bir addımlığında mübarizəni dayandırdı. Albert Səlimovdan sonra rinqə Kamran Şahsuvarlı çıxdı. O, Rusiya boksçusu 2010-cu ilin Avropa çempionu Artyom Çebotaryov ilə qarşılaşdı. Təcrübəli rəqibi ilə görüşdə inamlı mübarizə aparan Kamran Şahsuvarlı əzmkar qələbə qazandı və "Rio-2016" Olimpiadasında növbəti mərhələyə adladı.

"Rio-2016" Olimpiadasında boks yarışlarında mübarizə 13 avqust tarixində davam etdi. Həmin gün rinqə iki qat Dünya çempionu Məhəmmədrəsul Məcidov çıxdı. O, Qa zaxıstan boksçusu İvan Diçko ilə üz-üzə gəldi. Görüşün birinci hissəsində İvan Diçko cüzi fərqlə qalib gəldi. Növbəti, ikinci raundun gedişində isə hakim görüşü dayandırdı. Buna səbəd Qazaxıstan boksçusunun Məhəmmədrəs ul Məcidovun gözünə istəmədən zərdə endirməsi oldu. Məhəmmədrəsul Məcidov görüşü davam etmək istəsədə, rinqə daxil olan hakimlər onun gözündə qan olduğu bildirərək, görüşün dayandırılması tələb etdi, hakim isə tərəddüd etmədən görüşü dayandı və İvan Diçkonu görüşün qalibi elan etdi. Məhəmmədrəsul Məcidov isə XXXI Yay Olimpiya Oyunlarında arzusunda olduğu qızıl medal uğurunda mübarizəni zədə səbəbi ilə dayandırdı.

XXXI Yay Olimpiya Oyunlarının onuncu günündə rinqə Azərbaycanın daha iki boksçusu çıxdı. Birinci olaraq rinqə Lorenso Sotomayor çıxdı. Lorenso Sotomayor Fransa boksçusu Həsən Amzile ilə üz-üzə gəldi. Görüşdən rəqibindən tam üstün olan Lorenso Sotomayor qələbə qazandı və 1/4 finala adladı. Daha sonra rinqə London Olimpiadasının bürünc medalçısı Teymur Məmmədov çıxdı. Qazaxıstan boksçusu Adilbəy Niyazimbetov ilə gərgin keçən görüşün yekununda Teymur Məmmədov gözlənilmədənn məğlub olaraq Rio-de-Janeyro Olimpiadasını medalsız başa vurdu.

15 avqust tarixində isə son Dünya çempionu Elvin Məmişzadə rinqə çıxdı. O, 1/8 finalda Qazaxıstan nümayəndəsi Oljas Sattibayev ilə qarşılaşdı. Görüş ərzindən Oljas Sattibayevdən tam üstün olan Elvin Məmişzadə rinqi qələbə ilə tərk etdi. Həmin gün rinqə həmdə gənc və istadadlı boksçu Kamran Şahsuvarlı çıxdı. Ən azı bürünc medalı təmin etmək Kamran Şahsuvarlı Qazaxıstan boksçusu Janibəy Alimxanlu ilə qarşılaşdı. Gərgin idman mübarizəsində keçən görüşün yekununda Kamran Şahsuvarlı qələbə qazanaraq Olimpiya Oyunlarında özü üçün ən azı bürünc medalı təmin etdi. Tokio-2020 5 boksçu ilə mübarizə aparacaq. Ölkəmizin idman şərəfini Tayfur Əliyev (57 kq), Cavid Çələbiyev (63 kq), Lorenzo Sotomayor (69 kq), Alfonso Dominqes (81 kq) və Məhəmməd Abdullayev (+91 kq) qoruyacaqlar.

Tokio-2020 Yay Olimpiya Oyunlarında boks yarışlarının püşkatma mərasimi keçirilib. Texniki iclasdan sonra baş tutan tədbirdə Azərbaycan millisinin üzvlərinin də ilk rəqibləri bəlli olub.

Qeyd edək ki, Oyunlarda boks yarışları iyulun 24-də start götürdü və avqustun 8-də bitdi. Döyüşlər “Ryoqoku Kokuqikan” İdman Sarayında keçirilib.

Tokio-2020 Yay Olimpiya Oyunlarında boks yarışlarına start verilib. 5 idmançı ilə qatıldığımız Olimpiadada rinqə Azərbaycan millisinin heyətində ilk olaraq Tayfur Əliyev (57 kq) çıxıb.

Avropa Oyunlarının mükafatçısı “Ryoqoku Kokuqikan” İdman Sarayında keçirilən yarışın 1/16 final çərçivəsində Nquyen Van Duonqu (Vyetnam) sınağa çəkib. Gərgin keçən döyüş rəqibin 3:2 (29:28, 28:29, 28:29, 29:28, 29:27) hesablı qələbəsi ilə başa çatıb.

Tokio-2020 Yay Olimpiya Oyunlarında boks yarışları davam edir. Azərbaycan millisinin boksçusu Lorenzo Sotomayor (69 kq) Yaponiya paytaxtında ilk qarşılaşmasına çıxıb.

Olimpiadanın gümüş medalçısı “Ryoqoku Kokuqikan” İdman Sarayında keçirilən

yarışın 1/16 final çərçivəsində Əsgərxan Madiyevlə (Gürcüstan) üz-üzə gəlib. Lorenzo qaşından zədələndiyi üçün hakim üçüncü raundda görüşü dayandırıb və rəqibi qalib elan edib.

Tokio-2020 Yay Olimpiya Oyunlarında boks yarışları davam edir. Azərbaycan millisinin boksçusu Lorenzo Sotomayor (69 kq) Yaponiya paytaxtında ilk qarşılaşmasına çıxıb.

Olimpiadanın gümüş medalçısı "Ryoqoku Kokuqikan" İdman Sarayında keçirilən yarışın 1/16 final çərçivəsində Əsgərxan Madiyevlə (Gürcüstan) üz-üzə gəlib. Lorenzo qaşından zədələndiyi üçün hakim üçüncü raundda görüşü dayandırıb və rəqibi qalib elan edib.

Tokio-2020 Yay Olimpiya Oyunlarında boks yarışları davam edir. Azərbaycan millisinin boksçusu Cavid Çələbiyev Yaponiya paytaxtında ilk qarşılaşmasına çıxıb.

63 kq çəkidə mübarizə aparan dünya çempionumuz "Ryoqoku Kokuqikan" İdman Sarayında keçirilən yarışın 1/16 final çərçivəsində Yaroslav Hartsizlə (Ukrayna) döyüşüb. Görüş təmsilçimizin 5:0 (29:28, 30:27, 30:27, 30:27, 29:28) hesablı qələbəsi ilə yekunlaşıb.

Çələbiyev 1/8 finalda ermənistanlı Ovannes Baçkovla üz-üzə gəldi. Azərbaycan boksçusu Alfonso Dominqesin Tokio-2020 Yay Olimpiya Oyunlarında ilk rəqibi bəlli olub. 81 kq çəki dərəcəsində rinqə çıxacaq Avropa Oyunlarının qalibi 1/8 finalda Dilşotbek Ruzmetovla (Özbəkistan) gücünü yoxlayacaq.

Boksçumuzun rəqibinin adı bu gün dəqiqləşib. 1/16 finalda Emmett Brennanı (İrlandiya) 5:0 hesabı ilə məğlub edən Özbəkistan təmsilçisi mərhələ adladığından Dominqeslə qarşılaşacaq. İlk mərhələdən azad olan idmançımız Ruzmetovla iyulun 28-də döyüşdü. Azərbaycan boksçusu Alfonso Dominqes Tokio-2020 Yay Olimpiya Oyunlarında ilk döyüşünü keçirib. O, 1/8 finalda özbəkistanlı Dilşotbek Ruzmetovu mübarizədən kənarlaşdırıb.

81 kq çəki dərəcəsində qüvvəsini sınayan Dominqes rəqibini 4:1 (29:28, 28:29, 30:27, 30:27, 30:27) hesabı ilə məğlub edib.

Bu gün 26 yaşı tamam olan Avropa Oyunlarının qalibi bununla da ad gününə qələbə hədiyyə edib.

Alfonso 1/4 finalda türkiyəli Bayram Malkanla qarşılaşdı. Döyüş iyulun 30-da, Tokio-2020 Yay Olimpiya Oyunlarında. Azərbaycan millisinin boksçusu Məhəmməd Abdullayev (+91 kq) Yaponiya paytaxtında ikinci qarşılaşmasına çıxıb.

1/16 finalda bəhreynli Denis Latıpova qalib gələn boksçumuz özbəkistanlı Bahodir Calolovla üz-üzə gəlib. Döyüş rəqibin 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:26) hesablı qələbəsi ilə başa çatıb.

Azərbaycan boksçusu Alfonso Dominqes Tokio-2020 Yay Olimpiya Oyunlarında növbəti döyüşünü keçirib. Avropa Oyunlarının qalibi 1/4 finalda türkiyəli Bayram Malkanla qarşılaşıb.

İlk görüşdə özbəkistanlı Dilşotbek Ruzmetovu mübarizədən kənarlaşdıran boksçumuz ikinci döyüşünü də aktivinə yazıb. 81 kq çəki dərəcəsində qüvvəsini sınayan Dominqes rəqibinə 5:0 (28:27, 29:26, 28:27, 29:26, 28:27) hesabı ilə qalib gəlib.

Bununla da Dominqes yarımfinala vəsiqə qazanıb. Boksçumuz 1/4 final səddini keçməklə özü üçün ən azı bürünc medalı təmin edib.

O, finala gedən yolda kubalı Arlen Lopeslə qarşılaşdı.Boks üzrə Azərbaycan yığması Tokio Yay Olimpiya Oyunlarında ilk medalını təmin edib. 81 kq çəki dərəcəsində çıxış edən Alfonso Dominqes yarımfinala yüksələrək mükafatçılar sırasına düşəcəyini rəsmiləşdirib.

Bununla da boks yığmamızın Tokiodan medalsız dönməyəcəyi dəqiqləşib. Avropa Oyunlarının qalibi Olimpiadalardakı medal ənənəsini davam etdirib.

Boksçularımız Sidney - 2000-dən başlayaraq ardıcıl 6-cı yarışda medala yiyələnib. Əvvəlki 5 Olimpiadada 8 mükafat sahibi olan idmançılarımız 1 gümüş və 7 bürüncə sevinib.

Sidney-2000-də Vüqar Ələkbərov (75 kq), Afina-2004-də Fuad Aslanovla (51 kq) Ağası Məmmədov (54 kq), Pekin-2008-də Şahin İmranov (57 kq), London-2012-də Teymur Məmmədovla (91 kq) Məhəmmədrəsul Məcidov (+91 kq), Rio-2016-da Kamran Şahsuvarlı (75 kq) bürünc medala sahib çıxıb. Lorenzo Sotomayor (64 kq) isə gümüşümüzü qazanıb.

Tokio-2020 Yay Olimpiya Oyunlarında boks yarışları davam edir. Azərbaycan millisinin boksçusu Cavid Çələbiyev Yaponiya paytaxtında ikinci qarşılaşmasına çıxıb.

63 kq çəkidə mübarizə aparan dünya çempionumuz “Ryoqoku Kokuqikan” İdman Sarayında 1/8 finalda Ovanes Baçkovla (Ermənistan) üz-üzə gəlib. Çələbiyev 1:4 (28:29, 29:28, 27:30, 28:29, 28:29) hesabı ilə məğlub olub və yarışda çıxışını dayandırıb.

Azərbaycan boksçusu Alfonso Dominqes Tokio-2020 Yay Olimpiya Oyunlarında növbəti görüşünə çıxıb. 81 kq çəki dərəcəsində qüvvəsini sınayan milli üzvü yarımfinalda kubalı Olimpiya və dünya çempionu Arlen Lopeslə üz-üzə gəlib.

İlk görüşdə özbəkistanlı Dilşotbek Ruzmetovu, ardınca türkiyəli Bayram Malkanı mübarizədən kənarlaşdıran Avropa Oyunlarının qalibi bu dəfə uğurlu seriyanı davam etdirə bilməyib. Boksçumuz rəqibinə 0:5 (28:29, 28:29, 28:29, 28:29, 28:29) hesabı ilə məğlub olub.

Nəticədə Alfonso Tokio-2020 Yay Olimpiya Oyunlarını bürünc medalla başa vurub.

## ƏDƏBİYYAT

1. **Abiyev A.Q., Babanlı T.X., Hüseynov E.A.** *Boks*. Dərslik, Bakı, 2006.
2. **Əbiyev Q.Ş., Cəbrayılov Q.M.** *Boks yarışlarının təşkili, keçirilməsi və qaydaları*. Dərs vəsaiti, Bakı, 2016.
3. **Quliyev D.Q.** *İdman Akademiyası Olimpiya Oyunlarında.* Monoqrafiya. Bakı, 2021.
4. *Elektron resusrslar*: www.abf.az.

# АНАЛИЗ ВЫСТУПЛЕНИЙ АЗЕРБАЙДЖАНСКИХ БОКСЕРОВ НА ОЛИМПИЙСКИХ ИГРАХ В 1996-2020 ГОДАХ

**В.М. Валиев, Б.Р. Рзаев, Р.К. Ягналиев, Б.Р. Салимзаде**

*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
vahid.valiyev@sport.edu.az, balarza.rzayev@sport.edu.az,
ramiz.yagnaliyev@sport.edu.az, baba-ali.salimzada2021@sport.edu.az

**Аннотация.** Азербайджанские боксеры завоевали право участвовать в Олимпийских играх с 1996 года. Хотя в том году соревновались только два наших боксера. Ни один из наших боксеров не завоевал медали из-за несправедливости судьи. Афинская Олимпиада 2004 года также может быть отмечена как вершина азербайджанских боксеров. То, что весь состав является азербайджанцами, можно отметить как одну из сильных сторон команды. В последние годы возникла необходимость привлечения в команду боксеров-легионеров и исследования проблемы постепенного снижения результатов.

**Ключевые слова:** *Бокс, Олимпийские игры, Олимпийские игры в Атланте, Олимпийские игры в Сиднее, Олимпийские игры в Афинах, Олимпийские игры в Пекине, Олимпийские игры в Лондоне, Олимпийские игры в Рио, Олимпийские игры в Токио, весовые категории, статистика наград, Азербайджанские боксеры.*

# ANALYSIS OF THE PERFORMANCES OF AZERBAIJANI BOXERS IN THE OLYMPIC GAMES IN 1996-2020

**V.M. Valiyev, B.R. Rzayev, R.K. Yagnaliyev, B.R. Salimzada**

*Azerbaijan State Academy of Physical Education and Sport*
vahid.valiyev@sport.edu.az balarza.rzayev@sport.edu.az
ramiz.yagnaliyev@sport.edu.az baba-ali.salimzada2021@sport.edu.az

**Annotation.** Azerbaijani boxers have won the right to participate in the Olympic Games since 1996. Although only two of our boxers competed that year. None of our boxers won a medal due to the injustice of the judge.The 2004 Athens Olympics can also be highlighted as the peak of Azerbaijani boxers. The fact that the entire staff is Azerbaijani can be noted as one of the strengths of the team. In recent years, there has been a need to investigate the problem of attracting legionnaires to the team and the gradual decline in results.

**Keywords:** *Boxing, Olympic Games, Atlanta Olympic Games, Sydney Olympic Games, Athens Olympic Games, Beijing Olympic Games, London Olympic Games, Rio Olympic Games, Tokyo Olympic Games, weight classes, award statistics, Azerbaijani boxers.*